# Türkiyə-Azərbaycan həmrəyliyi türk dünyasının gücünü artırır

## Prezident İlham Əliyevin “Mən dəfələrlə demişəm, bu gün də demək istəyirəm ki, uğurlarımızın əsas mənbəyi bizim birliyimizdir” sözləri Türkiyə-Azərbaycan əlaqələrinin əbədilik rəmzidir

**Türk dünyasının aparıcı dövlətləri olan Türkiyə-Azərbaycan həmrəyliyi öndərlərimiz Mustafa Kamal Atatürk və Heydər Əliyev ideyalarına sadiqlik olmaqla möhkəmlənən dostluq və qardaşlığın sarsılmazlığını göstərir. Ötən əsrin əvvəllərində daşnak-bolşevik hərbi birləşmələrinin soydaşlarımıza qarşı törətdikləri soyqırımının qarşısının alınması üçün türk ordusunun sərkərdəsi Nuru paşanın komandanlığı ilə Qafqaz İslam Ordusunun qəhrəmanlığı, bu döyüşlərdə həlak olan türk əsgərlərinin şücaəti Azərbaycan xalqı tərəfindən həmişə qardaş köməyi kimi xatırlanır, hörmətlə yad olunur.**




Zəfər günü adlandırılan 15 sentyabr 1918-ci il tarixinin ölkəmizdə qeyd olunması türk birliyinin, qardaşlığının nümunəsidir. Tarixi dönəmlərdə baş verən döyüşlərdə düşmənə qarşı birgə mübarizə aparan hər iki xalqın ərənləri üçün Canaqqala savaşı nə qədər müqəddəsdirsə, Azərbaycanın müstəqilliyi yolunda, Qarabağ müharibəsində şəhid olan soydaşlarımız da türk xalqı üçün eyni dərəcədə unudulmazdır. Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həlli üçün siyasi, hərbi yardımını əsirgəməyən Türkiyədə Xocalı soyqırımının qurbanları, Qarabağ döyüşlərində həlak olan şəhidlər ehtiramla yad olunur.

“Həqiqətən böyük Mustafa Kamal Atatürkün vəsiyyəti həm Türkiyə üçün, həm də Azərbaycan üçün eyni xarakter, eyni əhəmiyyət daşıyır. Türkiyənin dərdi-qəmi Azərbaycanın dərdi -qəmidir, Azərbaycanın dərdi-qəmi Türkiyənin dərdi-qəmidir” söyləyən, “Türkiyə-Azərbaycan bir millət - iki dövlətdir” sözlərinə həyatda əməl edən ulu öndər Heydər Əliyev də Atatürk kimi türk dünyasının birliyi naminə göstərdiyi fədakarlığı, bitib-tükənməyən sevgisi ilə əbədiləşib. Tarixi, adət-ənənələri, soykökü bir olan hər iki xalqın ən çətin günlərdə belə biri-birinə kömək göstərməsi görkəmli siyasi xadim, ədib Nəriman Nərimanovun “qardaş qardaşa borc verməz, dayaq durar” sözlərində də əks olunur.

Mustafa Kamal Atatürk-Heydər Əliyev varislik missiyası “Biz nə qədər güclü olsaq, bizim həqiqətlərimiz də bir o qədər üstün olacaqdır. O qədər də bizim sözümüzü eşidəcəklər” söyləyən cənab Prezident İlham Əliyevin sözlərində əksini tapır.

Tarixin sınaqlarından çıxan bir həqiqət hər iki dövlətin əbədi varlığını təsdiqləyir: Əgər dünyanın hörmətini qazanmaq istəyirsənsə ilk növbədə məmləkətinə, millətinə sahib çıxmalısan. Çünki milli mənliyi olmayan millətlər başqasının əsarəti altına düşə bilərlər. Türkiyə və Azərbaycan da birlikləri ilə əsrlər boyu varlığını qorumuş, milli mənəvi dəyərlərinə sahib çıxmış, bütün xəyanətlərə də birgə səyləri ilə qalib gəlmişlər. Nahaq deyilmir ki, türklər əsarəti qəbul etməyən xalqdır.

İyun ayının 24-də Türkiyədə keçirilən prezident seçkilərində AKP-nin namizədi, Azərbaycana olan məhəbbəti ilə xalqımızın da hörmətini qazanan Rəcəb Tayyib Ərdoğanın qələbəsi hər iki ölkə arasında davam edən qarşılıqlı əməkdaşlığın yeni, daha geniş sferada inkişafını şərtləndirir. Türkiyə kimi qüdrətli dövlətə başçılıq missiyasını davam etdirən Rəcəb Tayyib Ərdoğanın qələbəsinin Azərbaycan - Türkiyə birliyinin ifadəsi olan TANAP-ın açılışı günlərinə təsadüf etməsinin özü rəmzi xarakter daşıyır.

Türkiyəli həmkarını qələbə münasibətilə təbrik edən Prezident İlham Əliyevin məktubunda qeyd olunduğu kimi xalqının Rəcəb Tayyib Ərdoğana etimadı qardaş Türkiyənin hərtərəfli inkişafı və çiçəklənməsi yolunda genişmiqyaslı fəaliyyətə verilən yüksək qiymətdir. Dərin tarixi kökləri olan və möhkəm təməllər üzərində qurulan, davam edən qarşılıqlı inama, etimada əsaslanan dövlətlərarası münasibətlər müttəfiqliyin, strateji tərəfdaşlığın zirvəsinə yüksəlmişdir. “Türkiyə-Azərbaycan dostluğu və qardaşlığı sayəsində birgə həyata keçirdiyimiz layihələr regionun inkişafında, Avropa və Asiya arasında mühüm enerji kommunikasiya dəhlizinin yaradılmasında böyük rol oynayır. Birgə gerçəkləşdirdiyimiz Bakı-Tbilisi -Ceyhan, Bakı-Tbilisi-Ərzurum, neft-qaz kəmərləri, Bakı-Tbilisi-Qars dəmir yolu xətti, bu yaxınlarda açılışını etdiyimiz TANAP layihəsi uğurlu əməkdaşlığımızın parlaq nümunəsidir” sözləri birgə təşəbbüsləri ilə dünyanın enerji, nəqliyyat xəritəsini yeniləyən, alternativ istiqamətlər üzrə xalqları birləşdirən birliyin, dostluq və qardaşlığın yenilməzlik simvoludur.

Prezident seçkilərindən sonra hər iki dövlət başçısının qarşılıqlı olaraq ilk səfərinin dost, qardaş ölkələrə etməsinin təməlində də tarixi köklərə bağlılıq, dünyada baş verən hadisələrə eyni mövqedən yanaşma, türk birliyinin maraqlarının ifadəsi kimi mühüm amillər dayanır.

Prezident İlham Əliyevin “Mən dünyada Türkiyə və Azərbaycan kimi ikinci müttəfiq tanımıram” sözləri kimi, “Bu iki xalq qədər biri-birinə dost, qardaş ola bilməz” kəlamı artıq aforizmə çevrilib. Bu yaxınlıq dövlət səviyyəsində, xalqlararası dostluqda, qlobal enerji və nəqliyyat layihələrinin həllində də əksini tapıb. Dünya siyasətinə təsir imkanları getdikcə artan bu dostluq regionda sabitliyin, iqtisadi inkişafın təminatına da etibarlı qarantdır.

Hazırda ən yüksək səviyyədə olan dövlətlərimiz arasındakı qarşılıqlı etimad, əlaqələrin sarsılmazlığı öndərlərimizdən ərmağan qalan irsə hörmət və etimaddır.

Bu birlik qlobal enerji layihələrinin həyata keçirilməsində də, Dağlıq Qarabağ ətrafında aparılan danışıqların sülh yolu ilə başa çatmasında israrlı olan Azərbaycanın mövqeyinin bütün səviyyələrdə dəstəklənməsində də, saxta erməni soyqırımı ilə əlaqədar qəbul olunan ədalətsiz qərarlara etiraz olunmasında da... ümumiyyətlə, Türkiyə ilə Azərbaycanın eyni mənbədən qaynaqlanan mənafelərinin müdafiəsində daha qabarıq şəkildə özünü büruzə verir.

Belə qarşılıqlı etimad Sürix protokolunun imzalanmasında, ABŞ Konqresinin Xarici Əlaqələr Komitəsində, Fransa parlamentində “erməni soyqırımı”, ilə əlaqədar qəbul olunmuş ədalətsiz qərara etiraz edən Azərbaycanın qətiyyətində, “Şərq tərəfdaşlığı” proqramında Türkiyənin yoxluğundan istifadə edərək dost, qardaş ölkəyə əsassız ittihamlar söyləyən Ermənistanın sabiq prezidenti S.Sarkisyana “Bu gün təəssüf ki, Ermənistan prezidenti burada fürsətdən istifadə edərək Türkiyəyə yenidən hücum edir. Bunu demək asandır, çünki bu masa arxasında Türkiyə nümayəndələri yoxdur. Ancaq mən buradayam və Türkiyə-Ermənistan sərhədlərinin niyə bağlı olduğunu deyə bilərəm” yalanlarını ifşa edən Prezident İlham Əliyevin cəsarəti ilə təsdiqlənmişdir. Türkiyənin inkişafını, qüdrətlənməsini istəməyən qüvvələrin, radikal silahlı qrupların törətdikləri 15 iyul hadisələri zamanı hərbi çevriliş cəhdini yolverilməz adlandıran, qardaş münasibətini Türkiyənin Prezidenti Rəcəb Tayyib Ərdoğana ünvanlanan məktubunda bildirən dövlət başçımız İlham Əliyev hadisələri böyük narahatlıqla izlədiyini bəyan etməklə, qiyamın qarşısının alınmasında şəhid olanların ailələrinə başsağlığı vermişdir: “Həmişə türk xalqının və dövlətinin yanında olan Azərbaycan xalqı və dövləti Türkiyənin Konstitusiyasına, demokratiyasına qarşı yönəlmiş bu cinayəti qətiyyətlə pisləyir və qəbuledilməz hesab edir. Əminəm ki, Türkiyə xalqı və hakimiyyətinin birliyini nümayiş etdirərək çevriliş cəhdinin qarşısının alınması istiqamətində həyata keçirdiyiniz qəti tədbirlər nəticəsində qardaş ölkədə vəziyyət qısa zamanda sabitləşəcək və əvvəlki qaydasına düşəcəkdir.”

Hər iki xalq arasındakı dostluğun sarsılmazlığını “Türkiyə ilə Azərbaycan tək ürəkdir” sözləri ilə ifadə edən Rəcəb Tayyib Ərdoğan Azərbaycan xalqının qardaşlıq dəstəyi kimi birgə çəkdikləri sıxıntıları yüksək dəyərləndirərək bu səmimiyyəti dost köməyi kimi qiymətləndirdi.

Həmin hadisələr zamanı keçirdiyi görüşdə, mitinqlərdə kənar partiyaların, həmkarlar təşkilatlarının bayraqlarının gətirilməsini məqbul hesab etmədiyini bildirən Prezident Rəcəb Tayyib Ərdoğan yalnız Şimali Kipr Türk Respublikasının və Azərbaycanın bayrağının dalğalana biləcəyini, ölkəmizə qardaş münasibətini bu sözləri ilə ifadə etmişdir: “Azərbaycan bizim ailəmizin üzvüdür.” Əsrlərin dostluğunu, qardaşlığını özündə ehtiva edən bu sözlərdə Türkiyə ilə Azərbaycanı birləşdirən, illərin sınağından çıxmış sədaqət, inam, etibar əksini tapır. İllərdən bəri Türkiyə ilə bağlı ürək sözlərini “Biz birlikdə güclüyük”, “ Türkiyə ikinci vətənimiz deyil, iki vətənimizdən biridir” sözləri ilə ifadə edən Azərbaycan xalqı bu etibarı dost ölkədə baş verən dövlət çevrilişinə cəhd zamanı birlik və həmrəyliyi ilə nümayiş etdirdi.

“Böyük 20”lərin Antalyada keçirilən zirvə görüşündə Türkiyənin dəvəti ilə ölkəmizin qüdrətli dövlətlərlə eyni məclisdə iştirakı qürurverici idi. Türkiyə- Azərbaycan Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının iclaslarının uğurla davam etdirilməsi, birgə fəaliyyətlə bağlı aparılan müzakirələr Türkiyə-Azərbaycan əlaqələrini möhkəmləndirməklə dünyada baş verən hadisələrə də müsbət təsirini göstərir. Ümumiyyətlə, ikitərəfli formatda uğurlu fəaliyyət göstərən, iqtisadi, enerji, təhsil, mədəni sahədə əməkdaşlığı yeni mərhələlər üzrə inkişaf etdirən, beynəlxalq təşkilatlarda siyasi baxışları eyni, bir-birinə dəstək olan Türkiyə ilə Azərbaycanın dostluğu bütün istiqamətlər üzrə inkişafdadır.

AŞ, ATƏT, BMT, İslam Əməkdaşlıq Təşkilatı və digər beynəlxalq təşkilatlarda vahid mövqedən çıxış edən hər iki ölkənin birliyi və həmrəyliyi bütünlükdə türk dünyasının gücünü artırır, ölkələrimizin regional təhlükəsizlik məsələlərinə töhfəsini verir. Reallıq budur ki, bölgədə nəhəng enerji, infrastruktur layihələrinin yaradılması təşəbbüsü məhz Azərbaycanla Türkiyəyə məxsusdur. Qlobal, bütün dünya üçün önəmli olan təşəbbüslərin nəticəsidir ki, tarixdə ilk dəfə olaraq Xəzər dənizi Aralıq dənizi ilə “Əsrin müqaviləsi”nin məntiqi nəticəsi kimi birləşdi və bu əlamətdar hadisə özlüyündə böyük bir nailiyyət kimi dəyərləndirildi.

Xəzər hövzəsi və Orta Asiya təbii qazının alternativ marşrutlarla Avropaya nəqlini nəzərdə tutan, Avropanın enerji təhlükəsizliyinə töhfə verəcək “Cənub Qaz Dəhlizi”, TANAP, TAP kimi layihələr Azərbaycanın neft strategiyasının tərkib hissəsi olmaqla Türkiyə-Azərbaycan əməkdaşlığının da uğuru, bölgədə təhlükəsizliyə etibarlı təminatdır.

“Çox ciddi işlər, danışıqlar aparıldı və nəhayət, 2012-ci ildə Azərbaycan ilə Türkiyə arasında TANAP - Transanadolu qaz kəməri üzrə müqavilə imzalandı. Beləliklə, “Cənub Qaz Dəhlizi”nin reallaşmasına güclü təkan verildi” sözlərini Əskişəhərdə TANAP-ın açılışındakı “Bu gün TANAP-ın istismara verilməsi Türkiyə-Azərbaycan qardaşlığının növbəti təzahürüdür. TANAP Türkiyə ilə Azərbaycanın növbəti zəferidir. TANAP tarixi layihədir. Bu gün biz XXI əsrin enerji tarixini birlikdə yazırıq. Bu tarix işbirliyi tarixidir, bu tarix sabitlik tarixidir. Enerji layihələrimiz bölgəmizə sabitlik gətirir. Bu layihələrdə iştirak edən bütün ölkələr, bütün şirkətlər fayda görür, xalqlar fayda görür” sözləri ilə davam etdirən, Avropa ilə Asiya arasında əməkdaşlıq körpüsü olan enerji və nəqliyyat layihələrinin geosiyasi, geoiqtisadi əhəmiyyətini yüksək dəyərləndirən və gələcək nəsillərə ərmağan adlandıran Prezident İlham Əliyevin vurğuladığı kimi, bu sərvəti birgə səylərimizlə qorumalıyıq, inkişaf etdirməliyik.

XXI əsr türk dünyası əsri olmalıdır. Sadəcə strateji addımlar düzgün planlaşdırılmalı, hədəflərə doğru inamlı addımlarla irəliləməliyik. Türkiyə və Azərbaycan bu istiqamətdə liderlik rolunu öz üzərinə götürüb və birgə səylər gələcəkdə də böyük uğurlara yol açacaq.

Bu kimi sözlərin səsləndirildiyi Dünya Azərbaycanlılarının qurultaylarında qeyd olunduğu kimi ümumi mənafelər baxımından eyni mövqeyə malik türk dünyasının birlik və həmrəyliyinin möhkəmlənməsində, beynəlxalq müstəvidə inkişafında, türkdilli xalqlar arasında inteqrasiyanı təmin etməklə ölkələrin siyasi-iqtisadi yüksəlişinə təkan verən münasibətlərin genişlənməsində Azərbaycan- Türkiyə faktoru böyük əhəmiyyətə malikdir. Türk dövlət və cəmiyyətlərinin dostluq, qardaşlıq və əməkdaşlıq qurultaylarında, Azərbaycan və türk diaspor təşkilatları rəhbərlərinin forumlarında, Azərbaycan və türk diaspor Təşkilatları Əlaqələndirmə Şurasının tədbirlərində, Türkdilli ölkələrin dövlət başçılarının ənənəvi olaraq keçirilən zirvə görüşlərində də əsas prioritet kimi daim diqqətdə saxlanılan Türkiyə-Azərbaycan dostluğu, qardaşlığı erməni lobbisinə qarşı mübarizə birgə fəaliyyətin əsas istiqamətlərini təşkil edir. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin müzakirələrində daim yanımızda olan Türkiyənin siyasi, mənəvi dəstəyi bu dostluğun əbədiliyinə nümunədir.

Qlobal və regional təhdidlərin davam etdiyi bir dövrdə Azərbaycanı təhlükələrdən qoruyan türkçülük siyasəti münasibətlərin gələcəyinin təminatı baxımından daha önəmlidir. Bu ideyaya sadiqlik, qlobal enerji, nəqliyyat dəhlizlərinin reallaşmasındakı əzmkarlıq, təmsil olunduqları beynəlxalq təşkilatlarda müzakirə olunan məsələlərə münasibətlərdə eynilik Türkiyə-Azərbaycan birliyində ifadəsini tapır.

Bu inkişaf bütün sahələrdə hiss olunur. Təkcə iki dövlət üçün deyil, Avropa İttifaqına daxil olan ölkələrin enerji təhlükəsizliyinin reallaşmasında Türkiyə-Azərbaycan birliyi önəmlidir.

“Mən dəfələrlə demişəm, bu gün də demək istəyirəm ki, uğurlarımızın əsas mənbəyi bizim birliyimizdir” sözləri ilə Azərbaycanın təşəbbüsü, Türkiyənin dəstəyi ilə gerçəkləşən enerji, nəqliyyat layihələrinin beynəlxalq əhəmiyyətini yüksək dəyərləndirən cənab İlham Əliyev siyasi əlaqələrin möhkəmlənməsi ilə hər iki ölkədə iqtisadi inkişaf üçün gözəl şərait yarandığını da birliyimizin məntiqi ifadəsi adlandırır.

**Xuraman İsmayılqızı,**
***“İki sahil”***